

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 avqust 2023-cü il №58 (2770) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyev “Euronews” televiziyasına müsahibə verib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Şuşada "Euronews" televiziyasına müsahibə verib. Müsahibə avqustun 1-də "Euronews"da yayımlanıb.*



**Müxbir:** Cənab Prezident Əliyev, bizi burada qəbul etdiyinizə görə Sizə çox minnətdarıq. Bu bölgə Cənubi Qafqazın yeni tarixində bəzi ən zorakı epizodların cərəyan etdiyi səhnə olub. Bununla belə, 2020-ci ildəki sülh razılaşmasından sonra gərginlik hələ də tam aradan qalxmayıb. Daimi düşmənçiliyi Siz nə ilə əlaqələndirirsiniz?

**Prezident İlham Əliyev:** Demək çətindir. Düşünürdüm ki, İkinci Qarabağ müharibəsindən sonra vəziyyət fərqli olacaq. Biz sülh üçün hazır idik və əslində, bir az gözlədik ki, beynəlxalq iştirakçılar bizə müəyyən yeni təkliflər versinlər. Anladıq ki, bu, bir növ boşluqdur. Heç kəs nə etməyi bilmirdi. 2020-ci il noyabrın 10-da Bəyanatı imzaladığımız zaman vəziyyət, əslində, dayanıqlı sülhü təmin etmirdi. O, sülh razılaşması deyildi, Bəyanat idi. Əslində, Ermənistanın kapitulyasiya aktı idi. Buna görə biz Ermənistanla münaqişənin yekun həll variantını tapmaq məqsədilə müəyyən təşəbbüslərlə çıxış etməyə başladıq və ictimaiyyət qarşısında bunu açıqladıq. Elan etdik ki, sülh sazişi imzalanmalıdır. Sonra yenə boşluq yarandı. Sonra isə biz sülh sazişinin prinsiplərini müəyyən etdik. Onlar ərazi bütövlüyünün, suverenliyin və beynəlxalq sərhədlərin qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası, güclən istifadə etməmə və ya güclə təhdid etməmə kimi beynəlxalq hüququn tam məlum prinsipləridir. Bu təklifi biz masa üzərinə qoyduq. Biz 30 illik işğaldan əziyyət çəkmiş və ədaləti güc hesabına bərpa etmiş ölkə olaraq yeni sülh prosesinin müəllifi olduq. Deməzdim ki, hər şey çox rəvan gedir. Biz hələ də nikbinik, çünki hazırda biz hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində çox fəal danışıqlar aparırıq.

**Müxbir:** Elə mən də onu soruşmaq istəyirdim. Sözünüzü kəsdiyimə görə üzr istəyirəm. Siz bu yaxınlarda Brüsseldən qayıtmısınız. Sülh danışıqlarının növbəti raundu keçirildi. Bir çox insan tərəfindən bu danışıqlar Ermənistanla Azərbaycan arasında dayanıqlı sülhə aparan ümid kimi qarşılandı. Ən sonuncu raunddan sonra ümidli olmaq bizim tərəfdən düzgün olardımı?

**Prezident İlham Əliyev:** Bəli, ümidli olmaq düzgün məsələdir. Lakin deməliyəm ki, sülh danışıqları xarici işlər nazirləri tərəfindən aparılır. Brüsseldəki görüşlərimiz Avropa İttifaqı Şurasının Prezidenti tərəfindən təşkil olunur. Əslində, həmin görüşlər bizə çox həssas məsələlərə toxunmaq imkanını verir.

**Müxbir:** Məsələn.

**Prezident İlham Əliyev:** Sərhədlərin gələcək parametrləri ilə bağlı məsələ, çünki Ermənistanla Azərbaycan arasında sərhəd müəyyən olunmamışdır. Sovet İttifaqının süqutu ərəfəsində biz həmin təcavüzlə üzləşdik. Onda sərhəd necə olacaq? Yerlərdə real vəziyyət necə olacaq? Kommunikasiyalarla bağlı vəziyyət necə olacaq? Çünki İkinci Qarabağ müharibəsi nəticəsində Ermənistanın imzaladığı sənəddə onun öhdəliyi var ki, bizim Naxçıvan kimi eksklavımıza çıxışımız olsun. Lakin bu, hələ də baş vermir. Beləliklə, sülh sazişinin əsas bəndləri nazirlər tərəfindən tərtib edilir. Bizim görüş isə hesab edirəm ki, yaxşı mühit yaradır. Lakin əgər biz Ermənistan tərəfindən konstruktiv yanaşma görsək və ən vacibi isə əgər onlar ərazi bütövlüyümüzü mübahisələndirən bütün iddialarını kənara qoysalar, onda biz tezliklə sülh variantını tapa bilərik. Bəlkə ilin sonunadək.

**Müxbir:** Danışıqlar haqqında sonra daha çox söhbət edəcəyik. Lakin mənim üçün soruşmaq maraqlıdır ki, vəziyyəti nizamlamağa cəhd edən çox beynəlxalq iştirakçı olub. Avropa İttifaqı danışıqlar masasına nəyi gətirir?

**Prezident İlham Əliyev:** Əslində, 1992-ci ildən etibarən, hələ işğal dövründə danışıqlar apardığımız zaman Avropa İttifaqı vasitəçilik prosesinin bir hissəsi olmayıb. Bu, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsüdür. O, bizi dəvət etdi və biz dəvəti qəbul etdik. Çünki düşünürük ki, Azərbaycan ilə Avropa İttifaqının, eləcə də onunla Ermənistanın əməkdaşlıq səviyyəsini nəzərə alsaq, Avropa İttifaqının fəal olması təbiidir. Xüsusən də İkinci Qarabağ müharibəsindən sonra Minsk qrupu, əslində, fəaliyyət göstərmirdi və indi də göstərmir. Beləliklə, müəyyən beynəlxalq qurum olmalı idi. Düşündüm ki, Avropa İttifaqı ən yaxşı vasitəçi ola bilər, çünki bizim onunla münasibətlərimiz qarşılıqlı hörmətə, etimada və maraqlara söykənir. Bir sözlə, həmin təşəbbüs hazırda çox fəal dialoq formatına çevrilir, çünki biz təkcə Brüsseldə deyil, həmçinin Avropa Siyasi Birliyinin tədbiri çərçivəsində də görüşürük. Sonuncu dəfə görüş Kişineuda baş tutdu. Bunu vacib hesab edirəm, çünki vəziyyətin durğun olmasına imkan vermirik, çünki durğunluq yaranarsa, yenidən bir növ fasiləyə keçərsə, onda biz hər hansı təhlükəli ssenaridən sığortalana bilmərik.

**Müxbir:** Sizin fikrinizcə, Qərbin, yəni, Avropa İttifaqının və həmçinin Birləşmiş Ştatların artan vasitəçiliyi bu regionda daha ənənəvi gücdə - Rusiyada qıcıq yarada bilərmi? Rusiyanın Ukrayna ilə məşğul olması faktı Azərbaycan ilə Ermənistanın ümumi razılığa gəlməsi üçün müəyyən imkan yaradırmı?

**Prezident İlham Əliyev:** Rusiya atəşkəs sazişinin, yəni, 2020-ci il 10 noyabr tarixli Bəyanatın vasitəçisi olub. Bu, nə Birləşmiş Ştatlar, nədə ki, Avropa İttifaqı idi. Ermənistanın baş naziri ilə ilk görüşlərim Rusiya tərəfindən Rusiyada təşkil olunmuşdur. Rusiya-Ukrayna müharibəsindən sonra vəziyyət dəyişdi və biz gördük ki, Birləşmiş Ştatlar və Avropa daha fəal oldular. Əslində, prosesin kimin tərəfindən aparılacağı və ya prosesi kimin müəyyən dərəcədə inhisara götürəcəyi bizim üçün böyük fərq etmir. Nəticəyə gəlmək vacibdir. Sülh sazişi ilə nəticələnəcək təşəbbüsü irəli sürən hər hansı tərəfi biz dəstəkləyəcəyik. Yeri gəlmişkən, xarici işlər nazirləri arasında Vaşinqtonda danışıqlar aparılıb. Hazırda biz bu ayın sonunda danışıqların raundunu Rusiyada keçirmək barədə Rusiyadan dəvət aldıq və bunun la razılaşdıq.

(Ardı 2-ci səhifədə)



Təlim döyüş hazırlığının davamıdır”

5-ci səhifədə



Ömrü dastana dönən qardaşlar

6-cı səhifədə



Arzulanan kövrəklik

6-cı səhifədə



“Döyüşlərdə də şəxsi heyətin yanında olduq”

7-ci səhifədə

# Azərbaycan Prezidenti İlham Əliyev “Euronews” televiziyasına müsahibə verib

(Əvvəli 1-ci səhifədə)

Beləliklə, əgər hər hansı digər məkan olarsa, əlbəttə ki, biz razılaşacağıq, çünki bizim üçün razılığa gəlmək və nəticə əldə etmək vacibdir. Əlbəttə, müəyyən siyasi rəqabəti, bəzi iştirakçıların daha fəal olmaq cəhdlərini anlayırıq, lakin biz bunu yalnız alqışlaya bilərik. Əgər sağlam rəqabət olarsa, onun yalnız yaxşı nəticələri olacaq.

**Müxbir:** Rusiya ilə uzun tarixi və əhatəli münasibətlərinizin olduğunu anlayıram. Sizin fikrinizcə, Rusiyanın hazırda bölgədəki təsiri necədir?

**Prezident İlham Əliyev:** Bilirsiniz, region haqqında demək mənim üçün çətindir, çünki Cənubi Qafqaz bölgəsi üç ölkədən ibarətdir. Biz Rusiyanın Cənubi Qafqazdakı qonşularımızla qarşılıqlı əlaqələrini, sadəcə, müşahidə edə bilərik. Azərbaycana gəldikdə isə çox şey dəyişməyib, çünki bizim Rusiya ilə münasibətlərimiz artıq tarazlaşdırılıb. Onlar bir-birimizin milli maraqlarının və əlbəttə ki, ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanır. Rusiya Azərbaycanın qonşusu və tərəfdaşıdır. Bizim nəzərəçarpan ticari dövriyyəmiz, daşımalar infrastrukturuna aid bir çox layihələrimiz var. Bu, xüsusən də indiki dövrə aiddir. Layihələr enerjinin inkişafına aiddir. Əlbəttə ki, mədəniyyət sahəsi də çox vacibdir.

**Müxbir:** Hazırda Siz məhz enerji sektorunda Qərblə bir çox razılaşmalar əldə etmisiniz. Elədirmi?

**Prezident İlham Əliyev:** Bəli, Qərblə var. Lakin bu, uzun müddət əvvəl əldə edilib və o vaxt biz Bakıdan İtaliyaya vahid boru kəməri sistemini qurmaq təşəbbüsünü irəli sürdük. O, mərhələli şəkildə icra olundu və onun yekun mərhələsi iki ildən çox əvvəl icra olunmuşdur. Artıq iki ildən çoxdur ki, Azərbaycan Avropanın mühüm qaz təchizatçısına çevrilib. Əlbəttə, Rusiyaya qarşı sanksiyalarla bağlı vəziyyət yeni ölçü yaradıb, çünki hazırda enerji sərvətlərimiz heç zaman olmadığı kimi zəruridir. Lakin istənilən addıma gəldikdə, biz onu bir çox il əvvəl imzalanmış müqavilələrimiz və planlarımız əsasında atırıq. Düzdür, hazırda Azərbaycandan əlavə qaz almaq üçün müraciət edən ölkələrin sayı daha çoxdur. Bunu etməyə hazırıq və artıq başlamışıq. Ötən il daha çox ölkə qazımızı almağa başladı. Bu, cari ildə də davam edəcək. Lakin yenə də Rusiya ilə münasibətlərimiz nöqteyi-nəzərindən, Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra çox şey dəyişməyib.

**Müxbir:** Burada olan vəziyyət haqqında danışaq. Beynəlxalq Ədalət Məhkəməsi, Avropa İnsan Hüquqları Məhkəməsi, ABŞ və Avropa İttifaqı hamısı Laçın dəhlizinin bağlı qaldığı təqdirdə, əhalinin potensial qaydada girova düşmək təhlükəsini qeyd edərək, həmin dəhlizdə hərəkət azadlığına dair zəmanətləri tələb ediblər. Hazırda Laçın dəhlizində baş verənlər haqqında nə deyə bilərsiniz?



**Prezident İlham Əliyev:** İkinci Qarabağ müharibəsinin bitməsindən təxminən iki il sonra Laçın dəhlizi adlandırılan yol işğal vaxtında işləyən qaydada fəaliyyətini davam etdirmişdir. Bir fərq var idi. O, rus sülhməramlılarının nəzarəti altında idi və bu, üçtərəfli Bəyanatın bir hissəsi idi. Fəaliyyətdə dayanma yox idi. Bizim tərəfimizdən müdaxilə etmək addımı da yox idi. Bununla belə, həmin yerdəki vəziyyət dəyişməyə başladı. Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələrinin dəhlizə müəyyən dərəcədə nəzarət etmək səylərinin səbəbi Qarabağda ötən il noyabrın əvvəlində təbii sərvətlərin yenidən qeyri-qanuni çıxarılması faktı ilə bağlı idi. Müharibədən sonra o dayandırıldı, çünki qeyri-qanuni idi. Bu sərvət bizə məxsusdur. Bir neçə xarici şirkət qızıl və mis mədənlərimizi qeyri-qanuni olaraq istismar edirdilər. Biz işğal zamanı heç bir şey edə bilmirdik, lakin müharibə başa çatdıqdan sonra aydındır ki, bu fəaliyyət dayandırılmalı idi və dayandırıldı. Sonra isə noyabrda həmin iş yenidən başladı. Vətəndaş cəmiyyətinin nümayəndələri rus sülhməramlılarından xahiş etdilər ki, mədənlərdə nəyin baş verdiyini görmək üçün orada monitorinq keçirsinlər. Biz gördük ki, dəmir və qızıl filizi yük maşınlarında rus sülhməramlılarının müşayiəti ilə Qarabağdan Ermənistana daşınır. Həmin yerə getmək hüququmuz təmin edilmədi və beləcə vətəndaş cəmiyyətimizin nümayəndələri yola nəzarət etməyə başladılar. Amma yenə də yol bağlı deyildi. O, tam azad idi və hərəkət azad idi.

**Müxbir:** Yəni, o, heç vaxt bağlanmamış, hərəkət heç zaman dayandırılmamışdır?

**Prezident İlham Əliyev:** Xeyr, xeyr!

**Müxbir:** Onda fikrinizcə, həmin təsisatlar xüsusən də Azərbaycandan niyə bunları soruşurlar? Onlar qeyd edirlər ki, Siz həmin sahənin ətraf hissəsinə cavabdehsiniz. Siz hərəkət etmək azadlığını təmin etməlisiniz. Sizcə, nəyə görə onlar Sizi hədəfləyirlər?

**Prezident İlham Əliyev:** Əslində, Beynəlxalq Ədalət Məhkəməsi bizə öz ismarışını ünvanladı ki, hər hansı hərəkətin pozulmaması üçün biz vətəndaş cəmiyyətinin fəalları ilə danışaq. Biz bunu etdik. Biz Ermənistanla sərhədimizdə sərhəd-keçid məntəqəsini qurduqdan dərhal sonra, - bu, bizim legitim hüququmuzdur və heç kəs tərəfindən, o cümlədən Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən mübahisələndirilmir, - biz burada Şuşadakı nümayəndəm vasitəsilə QHT nümayəndələri ilə danışdıq ki, həmin fəaliyyəti dayandırsınlar. Onlar bunu etdilər və getdilər. Hazırda da hərəkət etmək azadlığı bloklanmayıb. Aprelin 23-dən - sərhəd-keçid məntəqəsini qurduğumuz vaxtdan etibarən Qarabağın 2 mindən artıq sakini Ermənistana asan şəkildə gedib-gəlib. İyunun 15-də Ermənistan digər hərbi təxribata əl atdı və bizim sərhədçilərimizdən birini yaraladı.

Yol araşdırmaya görə müvəqqəti olaraq bağlı idi. Sonra yol təkrar açıldı. Qırmızı Xaç Komitəsi dava-dərmanın nəqlini və Ermənistanda müalicəyə ehtiyacı olan xəstələrin təxliyəsini bərpa etdi. Lakin əfsuslar olsun ki, Qırmızı Xaç Komitəsinin yük maşınlarının yoxlanılması zamanı siqaret, iPhone-lar və benzin kimi məhsulların qaçaqmalçılıqla keçirilməsi aşkar olundu. Qırmızı Xaç Komitəsi bunu etiraf etdi və bildirdi ki, onlar buna görə heç bir məsuliyyət daşımırlar, çünki...

**Müxbir:** Yük maşınları, sadəcə, sürücülər tərəfindən istifadə olunurdu...

**Prezident İlham Əliyev:** Bəli, lakin bu yük maşınlarının üzərində Qırmızı Xaçın emblemi var idi və sürücülərin uniformaları üzərində də emblemlər var idi. Beləliklə, yol yenidən bu şəkildə bağlanıldı və biz Qırmızı Xaç Komitəsindən buna son qoyulmasını və bizimlə daha konstruktiv işləməsini xahiş etdik. Çünki əfsuslar olsun ki, bu günə kimi onların Qarabağdakı ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir. Bu da yolverilməzdir. Çünki bütün dünya Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyır. Hətta Ermənistanın baş naziri dəfələrlə "Qarabağ Azərbaycandır" söyləyib. Bəs nəyə görə Qırmızı Xaç Komitəsinin Xankəndidəki ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir? Bu, bizim legitim tələbimizdir.

**Müxbir:** Laçın dəhlizi, sərhəd-keçid məntəqəsi və bu, çox mühüm keçid yolu məsələsinin indi sülhə əngəl olan əsas maneələrdən biri olduğunu deyərdinizmi?

**Prezident İlham Əliyev:** Mən belə düşünmürəm. Çünki Laçın-Xankəndi yolundakı vəziyyət biz aprel ayının 23-də sərhəd-buraxılış məntəqəsi yaradanda yerində dəyişdi. O vaxta kimi bizim sülh razılaşmasına gəlmək üçün iki il yarım vaxtımız var idi. Yeganə əngəl Ermənistanın rəsmi surətdə Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanımaq istəməməsi idi. Bəli, onlar bunu bəyanatlarla, şifahi bəyanatlarla edirdilər. Bu da mövqeyin ifadə edilməsinin bir yolu idi, lakin onlar sənədə imza atmalı idilər. Odur ki, mən bu iki məsələnin bir-biri ilə bağlı olduğunu düşünmürəm. Çünki Ermənistanla aparılan sülh danışıqlarının uğurlu bir ssenari ilə yekunlaşacağına ümid edirəm və bunun yaxın aylarda baş verəcəyinə ümidvaram.

**Müxbir:** Düşünürəm ki, indi Sizə ünvanlayacağım suala artıq cavab vermisiniz. Amma mən istənilən halda Sizin burada olduğunuza və Sizə sual vermək üçün çoxlu imkanımın olmayacağına görə yenə bu sualı Sizə vermək istəyirəm. 2020-ci ildə hər iki tərəfdən təxminən 5 min insan tələfatı oldu. Mən burada idim, mən Dağlıq Qarabağa gəlmişdim və həlak olmuş bir çox erməni əsgərlərinin anaları ilə görüşdüm. Həmçinin Azərbaycanda işləyən həmkarlarım sayəsində digər tərəfin, Sizin tərəfin ağrısı və acısının da şahidi oldum. Lakin mən müharibəyə və oğlunun ölümünə görə siyasətçiləri günahlandırdığını deyən bir ana ilə danışdığımı xatırlayıram. O, siyasətçilərin müharibə tələsinə düşmədən məsələləri diplomatik yolla həll etməli olduqlarını deyirdi. Siz missiyanızın nədən ibarət olduğunu deyərdiniz? Missiyanız müharibədə qalib gəlmək, yoxsa dayanıqlı sülhə nail olmaqdır?

**Prezident İlham Əliyev:** Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatdı. Biz bir çox amillərə baxmadan müharibədə qalib gəldik: siyasi amillərə, bizim hərbçilərimiz üçün bir neçə müdafiə səddinin qırılmasını çətinləşdirən işğal edilmiş ərazilərdə uzunmüddətli infrastruktur layihələrinin olması amillərinə baxmadan. Bəzi yerlərdə onların minalarla dolu beş, digər yerlərdə isə yeddi müdafiə səddi var idi. Yəqin ki, Füzulidən gələndə yolun yuxarıya doğru getdiyini görmüsünüz. Bizim hərbçilərimiz məhz bu yolla buraya gəliblər. Sizin gəldiyiniz, sonradan "Zəfər yolu" adlandırdığım bu yol mövcud deyildi. Bu, bizim hərbçilərimizin Şuşaya doğru necə irəliləməsini göstərən yol idi. Onlar bu qayalı dağlara dırmaşırdılar. Beləliklə, bu amillərə, böyük erməni diasporuna malik bir çox ölkələrin güclü siyasi dəstəyinə baxmayaraq, biz düzgün olanı etdik. Biz ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik. Biz öz torpağımızda vuruşduq. Biz Ermənistanın torpağında savaşmadıq və biz Zəfər çaldıq. Beləliklə, bu, artıq tamamlanmış bir nömrəli missiya idi. İndi isə biz sülh haqqında danışırıq.

Otuzillik işğaldan əziyyət çəkmiş ölkəmizin işğal altında olan əraziləri tamamilə məhv edilmişdir. Şuşada qeyri-qanuni məskunlaşmalar olduğu üçün şəhər tamamilə dağıdılmamışdır. Onlar Orta Şərqdən olan erməniləri burada məskunlaşdırmaq istəyirdilər və burada bir neçə min erməni yaşayırdı. Məhz buna görə heç də bütün şəhərlər dağıdılmamışdır. Lakin Füzuli tamamilə yerləyeksan edilmişdir, Ağdamda da vəziyyət eynidir. Demək olar ki, bir milyon azərbaycanlı evindən məhrum olmuşdur. Bütün bu acıya baxmayaraq, biz qisas almadıq. Mən dedim ki, biz qisası döyüş meydanında alacağıq, lakin Ermənistan müharibənin ilk günündən mənim tələb etdiyim bütün ərazilərdən geri çəkiləcəyi tarixləri bizə təqdim edən kimi biz dayandıq və sonra da sülh haqqında danışıqlara başladıq. İndi sülh bizim gündəliyimizdədir. Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib

(Əvvəli 2-ci səhifədə)

Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddialarımız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik. Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar və onlar onsuz da Azərbaycanın çox zəngin olduğu digər milli azlıqları kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına və ya Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər. Bu, onların seçimidir. Bu, bizim onları buranı tərk etməsini istədiyimizə və ya Ermənistanın bizi etnik təmizləmə siyasəti aparmaqda günahlandırdığına görə etmirik. Biz onlara seçim hüququ veririk. Çünki onlar heç bir hüquqi icazə olmadan ya Ermənistan vətəndaşları olaraq, ya da heç kim tərəfindən tanınmayan dırnaqarası "Dağlıq Qarabağ respublikası"nın vətəndaşları olaraq bizim ərazidə necə yaşaya bilərlər? Hesab edirəm ki, bu, legitim yanaşmadır. Bu yanaşma beynəlxalq təcrübəyə uyğundur. Bu yanaşma separatizmə qarşı mübarizə aparan bir çox Avropa ölkələrində gördüyümüz təcrübəyə uyğundur. İndi biz separatizmə qarşı mübarizə aparmaqda Ukraynaya kömək etmək üçün Avropa və Qərbin necə birləşdiyini görürük. Bəs bizə gəldikdə nəyə görə bizim separatizmə qarşı mübarizəmizə fərqli yanaşma sərgilənir? Nəyə görə Gürcüstanın separatçı regionlarına qarşı yanaşması Qərb cəmiyyəti və siyasətçiləri tərəfindən tamamilə anlaşılır, lakin bizim eyni mənşədən olan separatizmə son qoymaq üçün legitim istəyimiz sual altına alınır? Nə üçün İspaniya Kataloniyaya referendum keçirməyə icazə vermir, baxmayaraq ki, onların sayı 5, yaxud 6 milyon nəfərdir və yaxınlıqda öz dövləti olan ermənilərdən fərqli olaraq, onların öz dövləti yoxdur. Nə üçün biz separatizmə dözməliyik? Biz bunu etməyəcəyik.

**Müxbir:** Siz artıq əhaliyə və dövlətlərə mesajlar, o cümlədən təminatlar vermisiniz ki, istəsələr onlara qalmağa icazə veriləcək, onlar qorunacaqlar və burada yaşamağa icazə veriləcək. Bu gün ola bilsin ki, bizi izləyən ermənilərə mesajınız varmı? Şərt deyil bu, hökumət olsun, mən bilirəm, Siz baş nazir Paşinyanla təmasdasınız və ona mesaj göndərmək üçün bizim kameralarımıza ehtiyacınız yoxdur. Bəs ola bilsin ki, bizi izləyən başqa ermənilərə gəlincə necə? Bu gün qarşı tərəfə mesajınız nədən ibarətdir?

**Prezident İlham Əliyev:** Mən bu barədə düşünməmişəm, çünki həyatımda ilk dəfədir ki, mənə bu sual verilir.

**Müxbir:** Həqiqətənmi?

**Prezident İlham Əliyev:** Bəli. Düşünürəm ki, mən sualı iki hissəyə bölərdim. Birincisi, əgər onlar mənim söylədiklərimə qulaq asırlarsa, mənim Ermənistandakı ermənilərə mesajım belədir ki, biz onların dövləti ilə sülh istəyirik, bizim Ermənistana qarşı ərazi iddialarımız yoxdur, baxmayaraq ki, müharibədən əvvəl yüz minlərlə azərbaycanlı Ermənistanda yaşayıb və bütövlüklə etnik təmizləməyə məruz qalıb, onların mədəni və dini irsi tamamilə məhv edilib. Bununla belə, bizim heç bir ərazi iddiamız yoxdur. Lakin biz düşünürük ki, Azərbaycan və Ermənistan əlaqələrini normallaşdıranda və diplomatik əlaqələr quranda, Ermənistandan zorla deportasiya olunmuş azərbaycanlıların qayıtmaq hüququ var. Onlara digər bir mesaj ondan ibarətdir ki, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır. Uzun illər ərzində Ermənistan liderləri öz xalqını inandırırdılar ki, onlar dünyanın ən güclü ordusuna sahibdirlər, əgər müharibə başlasa, onlar Bakıya gələcəklər, Azərbaycan öz torpaqları uğrunda döyüşməyəcək, azərbaycanlılar artıq işğalla barışıblar. Bütün bu hekayələr tamamilə yanlış idi və təbliğatdan başqa bir şey deyildi. Beləliklə, müharibə bu hekayələri məhv etdi və bu, təkcə bununla bitmədi. O, həmçinin Ermənistan dövlətinin çox sayda ideoloji sütunlarını dağıtdı. Onlar dərk etdilər ki, müharibəni uduzublar və çox güman ki, bu, onlar üçün psixoloji cəhətdən çox ağrılı oldu. İndi biz sülh istədiyimizi deyəndə, bu, ona görə deyil ki, biz zəifik və sülh axtarırıq. Xeyr, onlar bilirlər ki, biz xeyli güclüyük. Bu ona görədir ki, biz tarixin bu qara səhifəsinin bağlanmasını istəyirik. Biz nə bu gün, nə də gələcəkdə başqa bir müharibə istəmirik.



Beləliklə, erməni icmasına gəlincə, düşünürəm ki, onlar beynəlxalq ictimaiyyətin sülh təşəbbüslərinə qarşı çıxmamalıdırlar. Başa düşməlidirlər ki, əgər onlar Azərbaycanla sülh sazişi imzalamaq istəmirlərsə, gələcəkdə vəziyyət proqnozlaşdırılmayan olacaq. Gördüyümüz kimi, dünyada və regionda geosiyasi vəziyyət çox kəskin şəkildə dəyişir. Onların təhlükəsizliyi ilə bağlı ümidlərinin bir qismi tamamilə yoxa çıxdı. İndi onlar yeni təhlükəsizlik qarantları axtarırlar. Kim bu ərazidə döyüş meydanında Azərbaycanla qarşıdurmaya hazırdır, xüsusilə bizim müharibə zamanı nümayiş etdirdiklərimizdən və müharibədən sonra müdafiə imkanlarımızı artırdığımız bir vaxtda? Ermənilərə görə bizə qarşı döyüşməyə hazır olan kimsə varmı? Mən buna şübhə edirəm.

Mənim konkret olaraq bu vəziyyətdə Ermənistan hökumətinə artıq çatdırdığım başqa bir mesaj ondan ibarətdir ki, onlar üçün seçim ən yaxşı və qat-qat yaxşı arasında deyil. Onlar üçün seçim çox pis və qəbulolunan arasındadır ki, qəbulolunan seçim sağlam düşüncəyə, beynəlxalq hüquqa və azərbaycanlıların 30 il ərzində məhrum edildikləri öz torpaqlarında yaşamaq hüququnun tanınmasına əsaslanır. Qarabağdakı ermənilərə xatırlatmaq istərdim ki, biz onlarla təmaslara dərhal başladıq. Faktiki olaraq biz erməni əhalinin yaşadığı bir neçə kənddən keçən yeni Laçın yolunu tikməyə başlayanda xalqlar arasında təmaslar oldu. Mənə məlumat verildi ki, yolun inşası ilə məşğul olan işçilərlə erməni icması arasında təmaslar qurulub və onlar demək olar dərhal dostlaşıblar. Əgər tikintinin birinci ayında rusiyalı sülhməramlılar hər iki tərəfin təhlükəsizliyini təmin edirdilərsə, sonradan onlar, sadəcə olaraq, çıxıb getdilər. Rusiya sülhməramlıları yox idi, onlar asanlıqla ünsiyyət qururdular. Beləliklə, bu, onu göstərir ki, sadə insanların əksəriyyətinin ürəyində bu nifrət yoxdur.

Qarabağdakı ermənilərə gəlincə, onlar qondarma liderlərinin arxasınca getməməlidirlər. Bu "liderlər", - hazırkı və bundan əvvəlki "liderlər", - onlara bütün bu müddət ərzində - müharibədən əvvəl, müharibə zamanı qalib gəldiklərini deyəndə yalan danışıblar. Hətta biz Şuşaya nəzarəti ələ alanda onlar deyirdilər ki, Şuşa onların nəzarəti altındadır. Onlar bunu çox yaxşı bilirlər. Onlar Xankəndidə hakimiyyəti ələ keçirmiş və əsas məqsədi öz maraqlarını güdmək olan bugünkü rejimin girovuna çevrilməməlidirlər.

Burada, Şuşada işğal dövründə tikilmiş üç villa var. Maraqlanırsınızsa, sizə onları göstərə bilərəm. Bu villalar Qarabağ ermənilərinin liderləri üçün tikilmişdi. Onlar bunu özləri üçün tikmişdilər. Şəhər tamamilə xarabalıqlar içərisində idi. Sizin indi gördükləriniz, o cümlədən bu "Qarabağ" hoteli, icra hakimiyyətinin binası, mehmanxanalar və hər şey bizim yenidənqurma prosesinin başlanğıcıdır. Onlar şəhərin ən yaxşı yerində özləri üçün 3 villa tikiblər. O insanlar ki, bu gün həmin qondarma, tanınmamış respublikaya rəhbərlik edirlər. Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq onlar normal həyat yaşayacaqlar. Onlar manipulyasiyanın girovu olmağa son qoyacaqlar. Həmçinin onlar başa düşməlidirlər ki, bizi saymamağa davam etsələr, bizim mövcud olmadığımız kimi davranmağa davam etsələr və ya "prezidenti", "nazirləri", "parlamentariləri" olan qondarma ölkədə yaşayırlarmış kimi davransalar, bu gün olduqları vəziyyət onların xeyrinə dəyişməyəcək. Bütün bunlar yalandır. Biz onlara normal həyat təklif edirik. Düşünürəm ki, onlar mənə qulaq assalar başa düşəcəklər və bilirlər ki, mən sözümə əməl edirəm.

**Müxbir:** Prezident İlham Əliyev, "Euronews"a müsahibə verdiyiniz üçün təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

* * *

Müsahibədən sonra Prezident İlham Əliyev "Euronews"un müxbirinə işğal dövründə Şuşada ermənilər tərəfindən güllələbaran edilmiş Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəlləri barədə məlumat verdi.

**AZƏRTAC-ın materialları əsasında**

# Gənc əsgərlərin hazırlığına xüsusi diqqət yetirilir

Azərbaycan Ordusunun bütün hərbi hissələrində hərbi xidmətə yeni çağırılmış gənc əsgərlərin hazırlığı məqsədilə onlarla müxtəlif nəzəri və praktiki məşğələlər keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, məşğələlər zamanı müdafiə naziri general-polkovnik Zakir Həsənovun xidmətə yeni gələn gənc əsgərlərin adaptasiya prosesinə həssaslıqla yanaşılması barədə tələblərinə xüsusi diqqət yetirilir.

Keçirilən məşğələlərdə gənc əsgərlərə nizamnamələrin və hərbi qanunvericiliyin müvafiq tələbləri, hərbi intizam qaydaları, eləcə də sıra, fiziki və atəş hazırlığı üzrə çalışmaların elementləri aşılanır.

Məşğələ rəhbərləri tərəfindən, həmçinin gənc əsgərlərə silahlanmada olan silah və texnikanın düzgün istismar qaydaları izah edilir.

Qeyd edək ki, məşğələlər gənc əsgərlərin hazırlığı proqramına uyğun olaraq həyata keçirilir. Tədbirlər çərçivəsində, eyni zamanda, onların xidmət şəraitinə uyğunlaşması və psixoloji sağlamlıqlarının qorunması məqsədilə söhbətlər aparılır, lazımi tövsiyələr verilir.



# Hərbi qulluqçuların döyüş hazırlığı artırılır



Müdafiə Nazirliyinin rəhbər heyəti tərəfindən bir neçə hərbi hissə və bölmənin döyüş hazırlığı yoxlanılıb.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və Nazirliyin digər rəhbər heyəti əvvəlcə NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) çərçivəsində yaradılmış ƏİK bölmələrində olub, şəxsi heyətin hazırlıq səviyyəsinin yüksəldilməsi üzrə görülən tədbirlərlə maraqlanıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, cari ildə bölmələrin ƏİK proqramı üzrə keçiriləcək qiymətləndirmə təliminə hazırlıq prosesi ilə bağlı komandir heyətinin məruzələri dinlənilib. Bildirilib ki, səhra təlim bazasında keçirilən taktiki-xüsusi hazırlıq üzrə məşğələlərdə əsas diqqət şəxsi heyətin müasir ümumqoşun döyüşünün aparılması üsullarının tətbiqi üzrə praktiki vərdişlərin təkmilləşdirilməsinə yönəldilib.

Sonra Müdafiə Nazirliyinin rəhbər heyəti hərbi hissələrin birində komando hazırlığı kursunun gedişi ilə tanış olub. Komandoların silahlanmasında olan artilleriya qurğuları və digər silahların tətbiqi ilə keçirilən məşqlər zamanı hərbi qulluqçuların hazırlıq səviyyəsi yüksək qiymətləndirilib.

Komando hazırlığı kursunda iştirak edən şəxsi heyətlə görüşən general-polkovnik K.Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzda aparılan uğurlu islahatlar çərçivəsində döyüş qabiliyyətli komando hərbi hissələrinin formalaşdırılmasına və onların müasir silahlarla təchiz edilməsinə nail olunduğunu vurğulayıb. O, bu kimi hərbi hissələrin yaradılması ilə ordumuzun döyüş imkanlarının daha da artdığını bildirərək, peşəkar komandoların hazırlanmasına bundan sonra da xüsusi diqqət yetiriləcəyini qeyd edib.



Daha sonra Müdafiə Nazirliyinin rəhbər heyəti hərbi hissəsinə gələrək burada Heydər Əliyev adına Hərbi İnstitutun kursantlarının cəlb olunduğu dağ hazırlığı kursunun gedişini izləyib. Məruzə olunub ki, çöl çıxışı zamanı müxtəlif mövzular üzrə keçirilən məşğələlərdə kursantlara dağ manevələrinin dəf edilməsi qaydaları öyrədilir, onların fərdi hazırlığına, həmçinin qrup şəklində praktiki tapşırıqların icrasına xüsusi diqqət yetirilir.

Baş Qərargah rəisi təlim və məşqlərin intensivliyinin və keyfiyyətinin artırılması, habelə hərbi qulluqçuların döyüş vərdişlərinin inkişaf etdirilməsi məqsədilə hazırlığın gecə və gündüz şəraitində keçirilməsi barədə göstərişlər verib.

Sonda bölmələrin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasına, həmçinin hərbi qulluqçuların silah və texnikaların effektiv tətbiqi üzrə bacarıqlarının təkmilləşdirilməsinə dair komandanlıq heyətinə müvafiq tapşırıqlar verilib.







# Milli Məclisin sədri Ermənistanın manipulyasiyaları ilə əlaqədar beynəlxalq parlament təşkilatlarına məktub ünvanlayıb

*Avqustun 1-də Milli Məclisin sədri Sahibə Qafarova Ermənistanın manipulyasiyaları ilə əlaqədar beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə və xarici ölkələrin parlament sədrlərinə məktub ünvanlayıb.*

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Məktubda bildirilir ki, 2020-ci ilin payızında Azərbaycan 44 günlük Vətən müharibəsi nəticəsində öz torpaqlarının Ermənistan tərəfindən 30 il davam edən işğalına son qoyub və ərazi bütövlüyünü bərpa edib. Münaqişə qurbanı olmasına baxmayaraq, məhz Azərbaycan Cənubi Qafqazda uzunmüddətli sülh və sabitliyin bərqərar edilməsi, Ermənistanla münasibətlərin beynəlxalq hüququn normaları və prinsipləri əsasında normallaşması üçün sülh təşəbbüsü irəli sürüb. Bununla yanaşı, Qarabağda yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası istiqamətində lazımi addımlar atılıb.

Məktubda təəssüflə qeyd edilir ki, ötən dövr ərzində Ermənistan Laçın yolundan istifadə etməklə Azərbaycana qarşı hərbi təxribatlarını və onun daxili işlərinə müdaxiləri davam etdirib, eyni zamanda, Qarabağ erməniləri ilə dialoqun irəliləməsinə maneçilik törədib. 2023-cü ilin aprel ayında Azərbaycan Respublikası beynəlxalq hüququn normalarına müvafiq surətdə öz suveren hüququnu həyata keçirərək Laçın sərhəd-buraxılış məntəqəsini qurub. Beynəlxalq Ədalət Məhkəməsinin son qərarında da Azərbaycanın bu hüququ təsbit olunub. Bunu həzm edə bilməyən Ermənistan tərəfindən Azərbaycan sərhədçisinə atəş açılması, dövlət bayrağımıza qarşı təxribat törədilməsi, Laçın yolundan icazəsiz istifadə etməyə cəhdlər göstərilməsi bu ölkənin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə real münasibətini, sülh prosesinə nə dərəcədə sadiq olduğunu bariz şəkildə nümayiş etdirib.

Məktubda diqqətə çatdırılır ki, Azərbaycanın Qarabağ bölgəsində "gərgin humanitar vəziyyət"in yaranması, bölgədə yaşayan erməni milliyyətli sakinlərin guya ərzaq və dərman çatışmazlığı ilə üzləşməsi barədə Ermənistan tərəfindən son dövrdə irəli sürülən iddialar beynəlxalq ictimaiyyəti çaşdırmağa yönələn və Azərbaycan Respublikasının ərazi bütövlüyünü, suverenliyini hədəf alan siyasi manipulyasiyadır.

Azərbaycan Xankəndi şəhərinə və ətraf kəndlərə humanitar yüklərin daşınması üçün Ağdam-Xankəndi yolunu təklif edib və bu təklif beynəlxalq səviyyədə də dəstək alıb. Ağdam-Xankəndi yolunun separatçılar tərəfindən bağlanması bu kampaniyanı başlatmış qüvvələrin həqiqi niyyətlərindən xəbər verir. Məqsəd sülh prosesini pozmaq və Qarabağın erməni sakinlərinin Azərbaycan cəmiyyətinə yenidən inteqrasiya etməsinin qarşısını almaqdır.

Bildirilir ki, Azərbaycan bölgədə sülh və sabitlik yaradılması üçün konstruktiv dialoqa sadiq olduğunu dəfələrlə nümayiş etdirib və bu istiqamətdə səylərini davam etdirəcək. Eyni zamanda, Qarabağda yaşayan erməni sakinlərinin hüquqları ölkə Konstitusiyası və qanunları əsasında təmin olunacaq.

Məktubun sonunda qeyd olunur ki, şərh edilənlərlə əlaqədar beynəlxalq ictimaiyyət məsuliyyətli yanaşma nümayiş etdirməli, Ermənistan tərəfinin manipulyasiyalarına aldanmamalı və konstruktiv dialoqa sadiqlik göstərməyin zəruriliyini Ermənistana izah etməlidir.

# Hərbi qulluqçuların fərdi hazırlığı yoxlanılır



2023-cü ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunda hərbi qulluqçuların fərdi hazırlığının yoxlanılması məqsədilə tədbirlər keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, müxtəlif təlim mərkəzlərində şəxsi heyətin ümumqoşun nizamnamələri, rəhbəredici və digər normativ sənədlərlə bağlı bilikləri, fiziki və sıra hazırlıqları yoxlanılır.

Ümumilikdə sinif otaqları, o cümlədən çöl-səhra şəraitində keçirilən yoxlamaların məqsədi şəxsi heyətin fərdi və praktiki hazırlığının qiymətləndirilməsidir.

# Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter ələ keçirilib



Avqustun 1-i saat 20:45 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus "DJI Mavic 3" kvadrokopteri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətindən qaldırılaraq Laçın rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bölmələrimizin sayıqlığı nəticəsində aşkar edilən kvadrokopter xüsusi texniki vasitələrlə endirilərək ələ keçirilib.

Döyüş hazırlığı

# Təlim döyüş hazırlığının davamıdır

*Ordunun gücü şəxsi heyətin döyüş hazırlığı ilə bağlıdır. Bu bağlılığı - İkinci Qarabağ müharibəsi, döyüşlər, qazanılan tarixi Zəfər təsdiqlədi ki, əsgərin döyüş hazırlığı təkcə hərbi biliklərin mənimsənilməsi ilə məhdudlaşa bilməz. Döyüş hazırlığı gənc əsgər hazırlığı ilə başlayır, hərbi xidmətlə, əsgərin hərbi xidmətdə yeni biliklər sisteminə yiyələnməsi ilə, müxtəlif təyinatlı təlimlərlə, orduda həyata keçirilən müxtəlif yarışlarla möhkəmləndirilir. Hər təlim gerçək döyüş şəraitinə uyğun şəraitlə həyata keçirildiyinə görə əsgər təlimdə də real döyüş vərdişlərinə yiyələnir...*



44 günlük Vətən müharibəsindən sonra ordu quruculuğu əvvəlki illərlə müqayisədə elmi yeniliklərdən daha geniş istifadə edilməklə aparılır. Təlimlərin mahiyyəti müdafiə nazirinin təsdiq etdiyi illik hazırlıq planına əsasən yenilənir, mövzusu daha əhatəli, döyüş şəraitinə bağlılığı daha çox arqumentlərlə şərtlənir. Bir neçə ay əvvəl artilleriya atışlı təlimdə iştirak etmişdim. Onda zabit demişdi ki, belə atışlar 44 günlük Vətən müharibəsindən əvvəl də aparılırdı. Onda da əsgərlərimiz şərti düşmənin mövqelərinin koordinatlarını dəqiqləşdirir, az atəşlə şərti düşmənin qruplaşmalarını, komanda məntəqələrini, döyüşən bölüklərinə, hissələrinə sursat daşıyan maşın karvanlarını, canlı qüvvəsini məhv edirdi. Zəfərdən sonra belə təlimlərin intensivliyi də artdı, digər qoşun növləri ilə qarşılıqlı fəaliyyətdə aparılan təlimlər də.

Polkovnik-leytenant Vasif Həsənov demişdi ki, hərbi hissələrdə müntəzəm keçirilən təlimlərdə gerçək döyüş şəraitinə müvafiq səviyyədə iştirak etməyən əsgərin döyüş hazırlığında inkişaf müşahidə olunmur. Bunu əsgərin özü də hiss edir. Ona görə də əsgərin təlimə (təlimlərə) marağı həmişə hiss olunur. Həmin marağın öyrənmə istəyinə çatdırılması, müəyyən mənada, hərbi-pedaqoji prosesdir. Biz bu prosesi həm elmi-metodiki əsaslarla aparırıq, həm də İkinci Qarabağ müharibəsinin döyüş təcrübəsi ilə. Bir məqamı da qeyd etməyi gərəkli sayıram: təlimlərdə qarşılıqlı fəaliyyət bütün qoşun növlərinin eyni səviyyədə yüksək hazırlığa malik olmasını zəruriləşdirir. Ona görə də şəxsi heyət təlimlərdə həmişə məsuliyyətlə iştirak edir.



Döyüş hazırlığı ilə bir sırada şəxsi heyətin mənəvi-psixoloji hazırlığını da yüksəldən təlimlərin məqsədi İkinci Qarabağ müharibəsində qələbələrlə nəticələnmiş mövqe döyüşlərinin, ümumilikdə müharibənin döyüş təcrübəsini təlimlərdə imitasiya etmək, döyüş vərdişlərini təkmilləşdirmək, əsgərlərin malik olduğu bilikləri, bacarıqları artırmaqdır. Təlimlər ərəfəsində əsgərlərə hərbi biliklər haqqında müxtəsər informasiyalar da verilir, bu informasiyaların tətbiq etmə üsulları və formaları da xatırladılır. Təlimdə bəzən əsgər bu formaları seçməkdə sərbəst olur. Taqımın (bölüyün) hücumda (müdafiədə) fəaliyyəti təkcə nəzəriyyə ilə deyil, həm də gerçək döyüşlərin nümunəsi əsasında şərh edilir ki, bu da təlimin səviyyəsinin yüksəldilməsində, nəticə etibarilə şəxsi heyətin döyüş hazırlığının artırılmasında əhəmiyyətli olur...

Mahiyyəti yenilləşən, miqyası genişlənən təlimlərin əksəriyyəti silahlanmaya daxil edilən yeni, müasir silahların tətbiqi ilə keçirilir. Əsgərlər mükəmməl öyrəndiyi yeni silahlardan təlimdə məharətlə istifadə edirlər. Bu, onların döyüş hazırlığının səviyyəsini müəyyənləşdirir.

Təlimlərin birində bölmələr komandanlığın döyüş texnikası üzərində müxtəlif irəliləmə üsullarını məşq etmişdilər. Təlimdən sonra şəxsi heyətə müharibədə belə məqamlarda döyüşə necə qoşulduğu, döyüşü necə apardığı, mövqe qələbəsini necə qazandığı da çatdırılmışdı. Növbəti təlimlər daha səmərəli, hərbi baxımdan daha düzgün yerinə yetirilmişdi. Şəxsi heyət təyin olunmuş marşrutla düzgün, təlimata uyğun hərəkət edərək şərti düşmənin nəzərdə tutulmuş mövqelərinə yaxınlaşaraq döyüş əmri ilə düşmənin hədəflərini dəqiq atəşlərlə məhv etmişdi, təlim tapşırığını yüksək səviyyədə yerinə yetirmişdi.

Müasir döyüşlər silahlanmaya daxil edilmiş ən yeni döyüş texnikaları ilə aparılır. Bu baxımdan şəxsi heyət silahlanmaya daxil edilmiş bütün döyüş texnikalarının istismar xüsusiyyətlərini mükəmməl mənimsəməlidir. Nəzəri baxımdan mənimsənilmiş hərbi biliklər isə ancaq təlimlərlə möhkəmləndirilir, əsgər təlimlər vasitəsilə püxtələşir. 2016-cı il Aprel döyüşlərinin iştirakçısı Tahir Misirxanov qələbədən iki gün sonra Lələtəpədə demişdi: "Mən də, həmkarlarım da yeni atıcı silahları böyük həvəslə öyrənirdik. Bilirdik ki, döyüş əmri veriləndə öyrəndiklərimiz ordumuzun qələbəsinə gərəkli olacaq. Belə də oldu. Öyrəndiklərimiz təlimlərlə möhkəmlənmişdi. Hərbi hissəmizdə xidmət edən əsgərlər də həmin silahlardan mükəmməl istifadə etmə bacarıqlarını bu niyyətlə öyrənirlər..."



Vətən Müharibəsi Qəhrəmanı kapitan Surxay Noçiyev təlimin döyüş hazırlığında əhəmiyyətini Daşaltı uğrunda gedən döyüşlə şərh etdi: "Təlimlərdə dağlıq massivlərdə hücumların təşkilini dəfələrlə məşq etmişdik. Ona görə də təlimlərlə mənimsənilən vərdişlər döyüşdə qələbəni təmin etdi. Dağlıq massivlərdə hərəkət çətin olsa da, əsgərlərimiz çətinlikləri atışa-atışa dəf edir, təhlükəsiz irəliləyir, tərpənməyə macal tapmayan düşməni səngərində məhv edirdi. Daşaltını ermənilərdən belə təmizlədik, sonra Şuşa uğrunda döyüşlərə cəlb edildik..."

Zəfərdən sonra komando hərbi hissələrindən birində keçirilən təlimdən sonra zabitlərdən biri demişdi: "Təlimdə əsgər həm öyrənir, həm də öyrəndiklərini təkmilləşdirir. Təkmilləşmə sistemli, məqsədyönlü formalaşma deməkdir. Müharibədə hər döyüşün öz xüsusiyyəti olsa da, hamısını ümumiləşdirən cəhətlər də var: cəsarət, diqqətlilik, çeviklik, məsuliyyət, ..."



İkinci dərəcəli kapitan Orxan Qədirov İkinci Qarabağ müharibəsinin döyüşlərindən sonra hərbi hissələrdə keçirilən təlimlərin mahiyyəti haqqında dedi ki, şərti döyüş hesab edilən təlim əsgərin qələbə ruhunu da artırır. Bu anlamda təlimin tapşırıqlarını gerçək döyüş ovqatıyla yerinə yetirənlər yüksək döyüş hazırlığına malik olan əsgər kimi formalaşır...

Təlim döyüş hazırlığı, döyüş hazırlığı güc, qüdrət deməkdir. Azərbaycan Ordusu güclüdür, qüdrətlidir. Təlimlər əsgərlərin qələbə ruhunu da artırır...

**Kapitan**
**Ceyhun CƏFƏRLİ**
**"Azərbaycan Ordusu"**




*Tarix yazan oğullar*

# Ömrü dastana dönən qardaşlar

*İslamiyyətin ilk vaxtlarından bu günümüzədək haqq yolunda döyüşüb, Tanrı dərgahına üz tutan qəhrəmanlara şahid deyilib. Şahidlik Vətən sevgisinin simvoludur. Şahidlik insanın Vətən, torpaq uğrunda gedən döyüşlərdə könüllü olaraq həyatla vidalaşmağıdır. Məhz buna görə də Allahın ən sevimli bəndələri qismində şəhidlik zirvəsinə ucalandan sonra cənnətdə əbədi olaraq yaşamaq haqqı qazanan şəhidlər həmişə ehtiramla xatırlanırlar.*

Haqq yolunda canlarından keçən şəhidlərimizin sırasına 44 günlük Vətən müharibəsi şəhidlərinin adları da qürurla yazıldı. Onlar xalqımızın bu haqq savaşında nəyə qadir olduğunu təsdiqlədilər, düşmən məhv edildi, Böyük Zəfər qazanıldı. Bu gün ana Vətənimizin elə bir yaşayış məskəni yoxdur ki, orada şəhid məzarları olmasın.

Tarix yazan oğullar sırasına mingəçevirli iki şəhid qardaş - Əli və İslamın adı da əbədi həkk olundu. Müharibənin ilk günlərində eşitdiyim bu acı xəbərdən həm təəssüf, həm də qürur hissi keçirdim. İkinci Qarabağ savaşının ilk günündə - 27 sentyabr 2020-ci ildə bir-birilərindən xəbərsiz şəhid olan iki qardaşın - Əli və İslamın şəhadətə qovuşması bir cüt övladını Vətən yolunda qurban verən bir ananın - Sevinc xanımın heç vaxt tükənməyən ağrı-acısı, dərdi-nisgilidir.

Əli və İslam qardaşlarının döyüşlərdə göstərdiyi hünərə, Vətən sevgisinə heyrətlənirsən. Hər iki qardaş öz ölümü ilə ölümsüzlüyə qovuşdu.

...Əli döyüşə girməmişdən qabaq qardaşı ilə görüşür. Bu görüşün şahidi olanlar deyirlər ki, iki qardaş görüşərkən bir-birilərinə baxıb kövrəldilər. İslam Əliyə deyib: "Qorxma, Əli, irəli get! Sənin arxanda mən varam". Əli ilə İslam eyni yerdə fərqli istiqamətdə döyüşə giriblər. Əli döyüşə ilk girənlərdən olub. O, Tərtər-Ağdərə, Suqovuşan istiqamətində döyüşüb. Döyüş yoldaşının dediklərinə görə əməliyyat başlayan kimi onları qruplara ayırıblar. "Əli manqa komandiri idi. Döyüş çox ağır keçirdi. Başımızın üstündən yağış kimi yağan güllələrin, minaatan mərmilərinin ardı-arası kəsilmirdi. Biz döyüşə-döyüşə irəliləyirdik. Əli çox mərd və ürəkli oğlan idi. O, bir neçə dəfə yaralansa da, döyüşə davam edən igid, cəsur oğullarımızdan biri olmuşdu".

Əlinin şəhid xəbərini eşidən Sevinc ana sanki buz heykələ dönür. Bu ağrı-acını necə daşıyacağını bilmirdi ana. Ananın gözləri qapıda o biri oğlu İslamı gəzir. İstəyirdi ki, İslam gəlib ona təsəlli versin. Bu zaman daha bir acı xəbər gəlir: İslam da şəhid olub, Əlidən əvvəl. Heç kəsin xəbəri yox. Ağır döyüşlər getdiyinə görə İslamı oradan çıxarmaq mümkün olmayıb. Ona görə də İslamın şəhid olması xəbərini Əlinin şəhidliyindən sonra eşidiblər.

Sevinc ana ikinci oğlunun da üçrəngli bayrağa bükülmüş tabutunu görür. Bir həyat nə qədər acımasız ola bilərmiş. Ana üçün ağır dərddir övlad acısı, övlad itkisi. O deyir ki, yaşayırsan, amma nəfəs ala bilmirsən. Övladlarım mənim nəfəsimi özləri ilə apardılar. Mənə o dünyada övladlarıma qovuşacağım anı gözləmək qaldı. "Həyat yoldaşım İlqar Birinci Qarabağ döyüşləri zamanı Goranboy özünümüdafiə taborunda döyüşmüşdü. Əfqanıstanda hərbi xidmət keçmişdi. Orada müharibədə iştirak etmişdi, yaralanmışdı. Bədənində qəlpələr var idi. Uşaqlar kiçik yaşlarında olanda o, faciəli surətdə həlak oldu. Övladlarım da atalarının yolunu davam etdirdilər. Hər ikisi hərbi peşəni seçdi. Əli atasının vaxtilə xidmət etdiyi Əfqanıstan Respublikasında Azərbaycan Ordusunun sülhməramlıları taborunun əsgəri olmuşdu. Əli də, İslam da deyərdilər ki, hərbi formanı geyinəndə çox qürurlanırıq. Orta məktəbdə bir sinifdə oxumuşdular. Onlar bir-birilərindən ayrılmazdılar. Əli əlaçı idi. Şeirlər yazırdı. "Tələsmə ölüm" şeirini oxuyanda sanki öz həyatını qələmə aldığını hiss



edirsən. İslam həmişə idmanla məşğul olmuşdu. Avarçəkmədə birinci yeri qazanmışdı".

Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Əli Əhmədov və əsgər İslam Əhmədov eyni gündə şəhadətə yüksəldilər, eyni gündə də Mingəçevir şəhərinin Şəhidlər xiyabanında dəfn olundular.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Əli Əhmədov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə, İslam Əhmədov isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Əli və İslamın vaxtilə yaşadığı küçəyə onların adı verilib.

Bütün müharibələr dağıntılar, insan ölümləri və faciələrlə müşayiət olunur. Acı həqiqət də budur ki, müharibə itkisiz olmur. Vətən müharibəsində xalqımız neçə-neçə qəhrəman oğul itirdi. Əli və İslamın böyüyüb boya-başa çatdığı Mingəçevir şəhərindən də İkinci Qarabağ müharibəsində 53 igidimiz şəhidlik zirvəsinə ucalıb. Əli və İslam qaldaşları da onların arasındadır.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Medallı igidlərimiz*

# Arzulanan kövrəklik

*Nahid Xanəliyev Salyan rayonunun Həsənli kəndində anadan olub. Orta məktəbdə oxuyanda müəllimləri ermənilərin Azərbaycanda törətdikləri vəhşiliklərdən də danışırdılar. Digər uşaqlar kimi Nahidin də düşüncələrində bir tərpəniş yaranırdı: Niyə? Özü də hiss etmədən bu sual onun sabahlarını müəyyənləşdiribmiş. Hərbçi olmağı qərara alıbmış. Atası Nahidin istəyini bəyənmişdi. Oğlunun arzusunun ötəri olmadığını duyanda ona xeyir-dua vermişdi.*

Nahid orta məktəbi bitirəndən sonra sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) verdi. Qəbul olundu. Abituriyent Nahid Xanəliyev Həsənli kəndinə kursant Nahid Xanəliyev kimi qayıtdı. Bu sevinc kənddə ev-ev dolaşdı...

Nahid də zabitlərin, müəllimlərin mühazirələrini dinləyir, seminarlarda fəallıq göstərir, öyrənir, öyrəndikcə özünü leytenant rütbəsində əsgərlər əhatəsində hiss edirdi. Öyrəndiklərini çöl çıxışları, müxtəlif təlimlər təkmilləşdirirdi. Dərslər də, təlimlər də kursantın zabit kimi hazırlığı idi və digərləri kimi kursant Nahid Xanəliyev də zabit kimi hərbi xidmətə başlayacağı günü gözləyirdi...

2013-cü ildə zabit kimi qoşunlarda xidmətə göndərildi.

- Hərbi And içdiyim günü də, ilk xidmət günümü də heç zaman unutmaram. Biri ömrümün zabitlik dövrünün başlanğıcı idi, biri komandir kimi hərbi xidmətə başladığım günün qüruru. İlk sıra düzülüşündə kursant kimi eşitdiyim bir hadisəni xatırladım: Bir pedaqoq deyib: müəllimin müəllimliyi ilk dərs gününün ilk saatında bilinir. Düşündüm ki, zabitin necə zabit olması da ilk sıra düzülüşündə bilinir. Bu marağı əsgərlərin baxışlarında da gördüm...

Leytenant Nahid Xanəliyev nümunəvi zabit oldu: tələbkar və qayğıkeş, əsgərləri baxışından duyan, əsgərləri həm sözlə, həm də baxışlarıyla anladan. Taqım komandiri kimi bölükdə fərqləndi. Fərdi xüsusiyyətlərini komandirləri təqdir edirdi, zabit yoldaşları bəyənirdi, əsgərləri sevirdi. Xidmət il-




ləri gənc leytenantın arzularının yolgöstərəni olurdu...

Müxtəlif hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət etdi. O da digər zabitlər kimi inanırdı ki, ordumuz Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının döyüş əmri ilə torpaqlarımızı işğaldan azad edəcək. Həmin gün 2020-ci il sentyabrın 27-si olacaqmış. Ermənistan yeni ərazilər işğal etmək niyyəti ilə hücum etdi. Ordu hissələrimiz hücumun qarşısını qətiyyətlə aldı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı əks-hücum əmri verdi. Bu əmr İkinci Qarabağ müharibəsinin başlanğıcı idi...

Kapitan Nahid Xanəliyev müharibənin ilk gününün döyüşlərini müharibənin tarixi kimi xatırlayır:

-Divizionumuza Suqovuşan istiqamətində dayanıqlı mövqe tutmuş düşmənin komanda məntəqəsinin, bir də hərbi hissələrinin dayaq məntəqəsinin koordinatları verilmişdi. Yeddi il bu günü gözləmişdim. Yeddi il düşmənə atacağımız ilk mərminin səsini eşitmək istəmişdim. Toplar qısa müddətdə döyüşə hazır vəziyyətə gətirildi. Təlimlərdə tələb edilən müddətdən də tez. Atış uğurla yerinə yetirildi. Komanda müşahidə məntəqəsindən atışların dəqiq olduğunu dedilər. Daha bir-neçə koordinat verdilər. Atışın dəqiqliyi top heyətlərinin döyüş əzmini də yüksəltmişdi, qələbə ruhunu da. Suqovuşan istiqamətində döyüşçülərimiz üçün əlverişli döyüş şəraiti yaranıbmış. Düşmənin bir neçə mövqeyini darmadağın edən döyüşçülərimiz Suqovuşana yaxınlaşmışdı. Oktyabrın 3-nə kimi döyüş getdi. Suqovuşan işğaldan azad edildi. Sevindik ki, bu qələbədə bizim atışlarımız da əhəmiyyətli olub...

Zabit top heyətlərinin döyüşlərdə iştirakından qürurla danışdı. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Şahlar Nağıyevin şəhidliyini qəhərlə xatırladı.

-Divizion cəbhənin müxtəlif cinahlarında döyüşə cəlb olunub, döyüşçülərimizə müxtəlif istiqamətlərdən atəş dəstəyi verib, müxtəlif istiqamətlərdə düşmənin döyüş texnikalarını, canlı qüvvəsini məhv edib. Suqovuşan istiqamətində düşmənin hərbi sursat daşıyan maşın karvanını məhv edəndə əsgərlərin sevinci məni də kövrəltdi. Komandirimiz belə kövrəlməyə arzulanan kövrəlmə deyirdi. Məni belə kövrəldən əsgərləri bağrıma basmaq istədim. Əlavə əmr verildi. O niyyətimi noyabrın 8-də gerçəkləşdirdim...

Zabit onu da dedi ki, qazandığımız tarixi Zəfər Azərbaycanın güclü dövlət, Azərbaycan Ordusunun güclü ordu olduğunu da təsdiqlədi. Zəfərdən sonra ordu quruculuğu daha qətiyyətlə davam etdirilməkdədir. Yeni yaradılan komando hərbi hissələri ordu quruculuğunda yeni mərhələ oldu...

Kapitan Nahid Xanəliyev "Xidmətdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib...

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

## Nümunəvi xidmət

# "Hərbçi olmağımla qürur duyuram"

*İnsan həyatı arzularıyla yaşayır. Bu arzular onun ömrünü müəyyənləşdirir. Ona görə arzulara gələcəyə düşən işıq deyirik. Seçimlər gələcəyə təsirsiz ötüşmür; inamla seçilənlər həmişə uğur gətirir...*

Belə seçimlərdən biri də ixtisas, peşə seçimidir. Peşə könlüncə olmalıdır ki, ondan zövq ala biləsən. Uşaq yaşlarından bu seçimlər həkim, polis, müəllim, ya da əsgər, zabit olmaq istəyindən ibarət olur. İstər bağça, istərsə də məktəbdə aşılanan Vətən, millət sevgisi onlarda torpağa bağlılıq hisslərini formalaşdırır. İxtisas seçəndə də bu sevgi ilə seçirsən. Gənclər ixtisas seçdilər, həkim oldular, müəllim oldular, zabit oldular - Vətənə layiq vətəndaş oldular. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Azərbaycanda hamıda Vətəni müdafiə əhval-ruhiyyəsi olmalıdır" kəlamı bu gün də ömürlərdədi. Çoxu bir amal uğrunda Vətən uğrunda cəbhəyə yollandı. Tarixi ədalət belə vətənpərvərliklə bərpa edildi.

"N" hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Cəlil Mövsümov bacarıqlı, ixtisasına tam yiyələnmiş, ətrafındakılara xüsusi diqqət və qayğı göstərən hərbçidir. "2016-cı ildən hərbi xidmətimi ciddi məsuliyyətlə davam etdirirəm. Vətənin keşiyində ayıq-sayıq dayanır, mənə tapşırılanları layiqincə yerinə yetirməyə çalışıram. Hərbçi olmağımla qürur duyuram", - əsgər Cəlil Mövsümov belə deyir.

"Bir vaxtlar hər birimizin Qarabağ dərdi vardı. Mən də bilirdim ki, gün gələcək, haqq öz yolunu tapacaq. Bu tarixi anın iştirakçılarından biri olmaq fikri həmişə məni həyəcanlandırırdı. Mənim də tarix yazanlardan olmaq xəyalım 2020-ci il sentyabrın 27-də gerçəkləşdi. Ordumuz Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının döyüş əmrini qətiyyətlə yerinə yetirərək Zəfər qazandı. Döyüşlərdə iştirak edən qardaşım müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Cabir Mövsümov mənə həm ruh yüksəkliyi, həm də qürur hissi yaşatdı. Döyüşlərdə ayrı-ayrı istiqamətlərdə vuruşsaq da, inamımız, əqidəmiz bir idi..."

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına uyğun olaraq əsgər Mövsümov



Cəlil Nurəli oğlu "Suqovuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qardaşı Cabir Mövsümov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarına layiq görülüb.

Vətən müharibəsində qazanılan Zəfər işğalı sonlandırdı. Cabir və Cəlil Mövsümov qardaşları da qələbənin iştirakçısı olmalarıyla qürurlanırlar...

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

## Tibb xidməti

# "Döyüşlərdə də şəxsi heyətin yanında olduq"

*İstər döyüşlər zamanı, istərsə də adi xidmət günlərində hərbçilərin sağlamlığı qayğısına qalınır. Müdriklər əbəs yerə deməyiblər ki, sağlam bədəndə sağlam ruh olar. Hərbçilərin sağlamlığı daim komandanlığın diqqət mərkəzindədir. Yalnız hospitallarda deyil, hərbi hissə və birləşmələrdəki tibb məntəqələrində də zabit və əsgərlərin müayinə və müalicəsi üçün hərtərəfli şərait yaradılıb.*

"N" hərbi hissəsində şəxsi heyətin sağlamlığı keşiyində dayanan həkimlərlə görüşmək, yaradılmış şəraitlə yaxından tanış olmaq üçün tibb məntəqəsinə getdik. Məntəqəyə daxil olanda elə ilk addımda hiss etdik ki, zabit və əsgərlərin sağlamlığına burada da böyük qayğı göstərilir. Tibb məntəqəsinin rəisi, tibb xidməti mayoru Emil Nəbiyev dedi ki, şəxsi heyətin sağlamlığı biz həkimlər üçün böyük önəm daşıyır. Çalışırıq ki, zabit və əsgərlərimiz daim sağlam olsunlar, xidməti vəzifələrinin öhdəsindən bacarıqla gəlsinlər. Təlimlərdə, məşqlərdə, dərslərdə fəal iştirak etsinlər, döyüş təcrübələrini artırsınlar. Xidməti vəzifələrimizə məsuliyyətlə yanaşdığımıza görə məqsədimizə yüksək səviyyədə nail oluruq. Şəxsi heyətin sağlamlıq durumunu daim diqqət mərkəzində saxlamaq üçün anında zəruri addımlar atırıq. Tibb məntəqəsinə müraciət edən hərbi qulluqçular diqqətlə müayinə olunurlar. Müayinə zamanı zərurət yaranarsa, hospitala göndəririk. Onlar müayinə və müalicə olunub sağlam vəziyyətdə hərbi hissəmizə dönürlər. Biz vəzifələrimizi bununla bitmiş hesab etmirik. Şəxsi heyət arasında daim maarifləndirici



söhbətlər də aparılır. Müntəzəm olaraq sanitar-gigiyenik mövzuda dərslər keçirilir, əsgərlərə şəxsi gigiyena ilə bağlı ətraflı məlumatlar verilir. Bölüklərdə xidmət edən tibb qardaşları da bu istiqamətdə zəruri işlər aparırlar. Maarifləndirmə söhbətləri müsbət nəticələr verir. Şəxsi heyətin sağlamlığı üçün bütün imkan və vasitələrdən səmərəli istifadə edirik. Hərbi həkim kimi zabit və əsgərlərimizin sağlamlığını qorumağı özümüzün ən müqəddəs borcu hesab edirik. Üzərimizə düşən bu borcu şərəf və ləyaqətlə yerinə yetiririk. 44 günlük Vətən müharibəsində də torpaqlarımızın işğaldan azad edilməsi uğrunda vuruşan zabit və əsgərlərlə çiyin-çiyinə dayandıq. Hərbi hissəmizin şəxsi heyəti Murovdağ istiqamətində mövqe tutmuşdu. Döyüşlərin getdiyi günlərdə məntəqəmizin həkimləri yaralanan hərbi qulluqçulara ilkin yardım göstərərək hospitala çatdırırdılar. Yaralanmış hərbçilərimizin həyatını xilas edirdik. Həkim kimi üzərimizə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlirdik. Döyüşlərdə yaralanan hərbi qulluqçularımızın həyatını ölümün əlindən alırdıq.

Əsgəri müayinə edən tibb qardaşı gizir Məhəmməd Mansırov dedi ki, əsgər Əmir Talışxanov iki gündür məntəqədə müalicə olunur. Onun sağlamlıq durumunu yoxlamaq üçün müayinə apararam. Müalicə səmərəli keçib. Əsgər özünü yaxşı hiss edir, qayıdıb xidmətini davam etdirə bilər. Diqqət və qayğının nəticəsidir ki, hərbçilərimiz tez bir zamanda sağlamlıqlarını bərpa edib xidməti yerlərinə qayıdırlar. Biz həkimlər yalnız tibb məntəqəsində deyil, 44 günlük Vətən müharibəsinin davam etdiyi günlərdə də zabit və əsgərlərimizin sağlamlığı keşiyində dayandıq. Vətən müharibəsi başlayan kimi həkim və tibb qardaşlarımız da şəxsi heyətlə birlikdə döyüşlərə göndərildilər. Hərbi tibb işçilərinin yüksək bacarığı sayəsində yaralıların həyatı xilas olundu. Döyüşlərdə fərqlənən həkim və tibb qardaşlarından tibb xidməti leytenantı Elməddin Əliyev, gizir Vüsal Abdullayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuşlar Ayaz Hüseynov, Sahil Dərvişov, kiçik çavuş Akif Qocayev və başqaları döyüşlərdə döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəldilər. Biz bu gün də yorulmaq bilmədən şəxsi heyətin sağlamlığının keşiyindəyik.

Hərbi hissənin tibb məntəqəsində gördüklərimizdən və eşitdiklərimizdən bir daha əmin olduq ki, burada çalışan həkimlər və digər tibb personalı yorulmaq bilmədən şəxsi heyətin sağlamlığı keşiyində dayanırlar.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Pentaqon: Vaşinqton Ukrayna Silahlı Qüvvələrinin döyüş qabiliyyətinə arxayındır



ABŞ-ın Ukraynanın əkshücum əməliyyatı ilə bağlı illüziyası yoxdur və bunun çətin olacağını başa düşür.

Bunu Pentaqonun mətbuat xidmətinin rəhbəri Patrik Rayder deyib.

"Ukraynanın apardığı bu döyüşün asan olması ilə bağlı heç bir illüziya yoxdur. Rusiyanın möhkəmlənməyə vaxtı olub, Ukrayna isə irələyir, ona görə də döyüşlər çətin olacaq", - deyə P.Rayder vurğulayıb. O əlavə edib ki, Vaşinqton Ukrayna Silahlı Qüvvələrinin döyüş qabiliyyətinə arxayındır.

Pentaqonun sözçüsü onu da bildirib ki, ABŞ "Vaqner"in Belarusa köçürülməsi ilə əlaqədar Polşada ABŞ qüvvələrinin yerləşdirilməsinə düzəliş etmək üçün heç bir səbəb görmür.

## Polşa Belarusla sərhədə döyüş helikopterləri yerləşdirib



Polşa Belarusla sərhədə döyüş helikopterləri yerləşdirib.

Bunu Polşa Silahlı Qüvvələri Baş Komandanlığının birinci müavini general Marek Sokolovski bildirib.

"1-ci Aviasiya Briqadası və 25-ci Hava Briqadasının helikopterləri yenidən qruplaşdırılıb. Artıq onların yerləşdiyi ərazilərin ilkin kəşfiyyatı aparılıb. Aviasiya sahəsində texniki brifinqlər keçirilib", - deyə M.Sokolovski qeyd edib.

Onun sözlərinə görə, helikopterlər döyüşə hazır vəziyyətdədir: "Onları tam uçuş lisenziyası olan təcrübəli pilotlar idarə edir. Narahatedici bir hadisə baş verərsə, silahdan istifadə etməkdən çəkinməzlər".

## CNN: Məhkəmə Trampın dinləməsini avqustun 28-nə təyin edib



Məhkəmə Kapitoliyə hücumla bağlı ABŞ-ın keçmiş prezidenti Donald Trampın işi üzrə dinləməni avqustun 28-nə təyin edib.

Bu barədə CNN xəbər verir.

Məhkəmə Donald Trampı həbs etməməyə qərar verib və onu məhkəməyə gələrək qanuna əməl edəcəyi vədi ilə azadlığa buraxıb.

Ağ evin sabiq başçısına qarşı dörd maddə üzrə ittiham irəli sürülüb. ABŞ tarixində ilk dəfə olaraq sabiq prezident yalan məlumat yaymaqda ittiham edilir. Daha iki ittiham isə məxfi fayllarla səhv davranış və işgüzar qeydlərin saxtalaşdırılması ilə bağlıdır. Eyni zamanda, Corciya prokurorluğu 2020-ci il seçkilərinin nəticələrinin ləğvinə cəhdlə bağlı daha bir ittiham üzrə dördüncü cinayət işi aça bilər.

## Niger qiyamçıları ölkədə tətbiq edilən komendant saatını ləğv ediblər



Nigerdəki üsyançıların hakim orqanı - Vətənin Müdafiəsi üzrə Milli Şurası prezident Məhəmməd Bazum hakimiyyətdən kənarlaşdırıldıqdan sonra ölkə ərazisində tətbiq edilən komendant saatının ləğv edildiyini elan edib.

Bu barədə Milli Şuranın sözçüsü polkovnik Amadu Abdraman bildirib.

Qeyd edək ki, iyulun 26-da Niger hərbçilərinin üsyançı qrupu Bazumun ölkə prezidentliyindən uzaqlaşdırıldığını, sərhədlərin bağlandığını, komendant saatının tətbiq edildiyini, konstitusiya fəaliyyətinin dayandırıldığını elan edib.

**AZƏRTAC-ın materialları əsasında**

*Düşüncələr*

# Ədəbiyyatımızın baş qəhrəmanı - Azərbaycan əsgəri

*Tariximizin ən şanlı səhifəsi olan Vətən müharibəsi yavaş-yavaş üzü keçmişə doğru ələnib sovrulduqca, aylar, illər tarixləşir. Şərəf dolu döyüşlər yaddaşlardan qələmin qüdrəti ilə söz-söz, cümlə-cümlə ədəbiyyatın materialı olur, maraqlı əsərlər həm tarix kimi, həm də ədəbi əsər kimi yaşadılır.*

Ədəbiyyat yarandığı gündən həmişə həyatımızda baş verən müxtəlif biçimli, ayrı-ayrı seçimli hadisələrdən qidalanıb, mövzusunu yaşadığımız illərdən götürüb, oxucuları ilə daim nəfəs-nəfəsə yaşayıb, onlarla yol yoldaşlığı edib. Ədəbiyyat bu gün də öz yolunda, öz yolçuluğundadı. Həyatın əbədi-əzəli karvanı kimi yoluna davam etməkdədi.

Artıq ədəbiyyatımızın əsas missiyası 44 gün davam edən və qələbəmizlə yekunlaşan Vətən müharibəsindən yeni mövzulu əsərlərə yeni qəhrəmanlar gətirməkdir. Bununla ədəbiyyatımız daha da zəngin və oxunaqlı olacaq.

Otuz il ərzində müharibə mövzusunda yazılmış, yaranmış əsərlərin mətnlərində kövrəklik, kədər və göz yaşları dolaşırdı. Qələmlər sevinmir, sözlərin və obrazların üzü gülmürdü. Yazılan, yaradılan əsərlərdə müəlliflər uğursuzluğu düçar edildiyimiz Birinci Qarabağ döyüşlərinin içində qalibiyyət motivləri, üstünlük işartıları axtarmağa çalışırdılar. Çətin də olsa, əsərlərin baş qəhrəmanlarını qalib göstərməyi bacarırdılar. Bacarıq və istedadlarının sayəsində əsərlərində oxucularına qəhrəmanlıq, vətənpərvərlik hissləri aşılayırdılar. Gələcək döyüşçülərin, 44 günlük Vətən müharibəsinin iştirakçısı olacaq gənclərin ürəklərinə düşmənə qarşı nifrət toxumu səpirdilər, sabahın zabit və əsgərlərini qisasa, intiqama, torpaqlarımızı azad etməyə səsləyirdilər.

Oxuduğu əsərlərdən ruhlanan Azərbaycan əsgəri, Azərbaycan zabiti düşmən təxribatı ilə başlayan İkinci Qarabağ müharibəsində ermənilərə sarsıdıcı zərbələr vurdu. Zəfərləri ilə yurd-yuvalarından didərgin düşmüş insanların üzlərinə təbəssüm, ürəklərinə sevinc ələdilər. Qəhrəmanlıqları ilə yaradıcı insanlar üçün, bütövlükdə ədəbiyyatımız üçün təzə və geniş yollar açdılar.

Zəfərlə başa çatan müharibə ədəbiyyatımızın kədərli üzünü uzun zamanlar güldürəcək, ürəyini açacaq, qəlbini sevindirəcək. Zamanın nəbzini tutan yazıçı və şairlər elə isti-isti, müharibənin davam etdiyi günlərdə Azərbaycan əsgərinin qəhrəmanlığını, igidliyini vəsf edən bir-birindən dəyərli əsərlər yazdılar. Bu dəyərli əsərlərdə hərbçilərimizin qələbələri böyük sevinc içində qələmə alındı.

Müharibə başa çatsa da, yazıçı və şairlər qələmlərini yerə qoymurlar. Çünki qələm onların əbədi-əzəli silahlarıdı, ən etibarlı yol yoldaşıdı. Bu "silahları" ilə əsgərlərin şərəf dolu döyüş yollarını dəyərli əsərlərinə köçürürlər. Artıq ədəbiyyatımızın baş mövzusu, baş qəhrəmanı Vətən müharibəsində böyük zəfər qazanmış Azərbaycan Ordusunun hərbi qulluqçularıdır. Azərbaycan Ordusunun belə şərəfli qəhrəmanlığı ilə bütün dünya azərbaycanlıları fəxr edəcəklər. Oxucular əsgərlərimizin cəsarətindən, hünərindən bəhs edən minnətdarlıq hissi ilə yazılan əsərləri sevə-sevə oxuyacaq, oxuduqca da igidlikdə həmin bədii əsərlərin qəhrəmanlarına bənzəməyə çalışacaqlar.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

*Esse*

# "Əsgər bulağı"

Min illərdi suyu duruluq bilmişik...

Su - bulaq deməkdi. Dədə Qorqud bulağı "Şırıl-şırıl qayalardan çıxan su" deyib oxşayırdı. Bu oxşama oğuzlara ruzi, bərəkət gətirən suya şükranlıq duasıydı. Harada bulaq görmüşəmsə, onu duruluq carçısı bilmişəm, ona xalqın ruhunun səsi demişəm...

Hadrutda bir bulaq var, adına "Əsgər bulağı" deyirlər. Duyanlara tarixlər danışır. Danışdığı tarixlər hadisələrdi. Buralarda qılıncla qarşılananlar da "Əsgər bulağı"nın yaddaşındadı, duzçörəklə qarşılananlar da, qılıncla doğranan namərdlər də yadındadı, namərdləri qılıncla doğrayanlar da. Səssizlikdə bulağın səsini dinləyirəm. "Əsgər bulağı"nın səsi qəlbitəmizlərə gündüzlər ilahi pıçıltıdı, gecələr layladı...

Zəfərdən sonra Hadrutda qəsəbəni əhatələyən dağlıq massiv də, meşə zolağı da gözəl könül xoşluğu vermişdi. Sərin-sərin əsən yel ağacların xırda budaqlarını da, yarpaqlarını da titrədirdi. Bu ecazkar titrəyişin eynini Zəfərdən sonra əsgərlərin əhatəsində Qubadlının Muradxanlı kəndində də görmüşdüm. Onda da beş-on addım aralıda bir bulağın axışını düşüncələrimə, duruluq suyundan tamsınanların baxışını yaddaşıma köçürmüşdüm. Onda



"Dirilik suyudu suyun, ay bulaq..." pıçıltısını da eşitmişdim. Hadrutda o bulağa bənzər başqa bulağın səsində də ilahi kəlmələşmə duydum: Azərbaycan əsgəri işğalı sonlandırdı!..

Qəlbitəmizlərə nələr deyir "Əsgər bulağı?!"

...Hadrutu əhatələyən dağ, meşə massivlərinə çatmışdılar. Nəfəs dərirdilər. Kürək-kürəyə verib döyüş əmrini gözləyirdilər. Gecəydi. Səssizliyiydi. Bulaqların ürkək səslərindən savayı heç nə eşidilmirdi. Gecənin qaranlığı üzü səhərə sarı çırpınırdı. Danış, döyüşlər, döyüşənlər unudulmasın, "Əsgər bulağı"...

...Səhər açılmaqdaydı. Mərmilər düşmənin hərbçilərini döyüş üzünə çıxartmışdı. Döyüşçülərimiz döyüşə-döyüşə irəliləyirdilər; qətiyyət yaxınlaşır, qorxaqlıq qaçırdı. Qaçmağa macal tapmayanlar, qaçmaq istəməyənlər atışırdı. Atışanları məhv edən döyüşçülərimiz qəsəbəyə girmişdi. Döyüş qəsəbənin yollarında, içində gedirdi. Düşmənlər - evlərdə, evlərin, tikililərin daldasında, döyüşçülərimiz - açıqlıqda. Qətiyyət, cəsarət bunların müəyyənləşdirdiyi peşəkarlıq belə döyüşləri həmişə qələbə ilə sonlandırır...

Danış, qəhrəmanlıqlardan, qəhrəmanlardan danış, "Əsgər bulağı". Bu Zəfərdən danış. Səsin Uca Göylərə sərilsin...

“Ermənilik qeyrətin, təpərin, cəsarətin qarşısında dayana bilməzdi. Düşmən bu yaşayış məntəqəsində böyük ciddiyyətlə müqavimət göstərməyə çalışırdı. Ona elə gəlirdi ki, Hadrutu sonacan əlində saxlaya bilsə, Azərbaycan Ordusunun əks-hücumunu dəf edə biləcək. Nə Hadrutu əlində saxlaya bildi, nə də əks-hücumu dayandırmağa qüdrəti, gücü çatdı, - "Əsgər bulağı" belə dedi.

...Yolun qırağındakı evlərdən atışan erməniləri məhv etmişdilər. O birisi evə keçib əməliyyatı davam etdirmək istəyirdilər ki, döyüşçüyə güllə dəydi. Sinəsi qana boyandı, döyüşçü şəhid oldu...

Danış, Vətənin adından danış, "Əsgər bulağı"...

Döyüşçü, zabit, başqa döyüşçü yanaşı döyüşürdü. Döyüşçülərdən biri özünü zabitin üstünə atdı - zabitə düşmən silahının tuşlandığını görübmüş. Güllə döyüşçünün boynuna dəymişdi: Zabitin nəfəsi şəhid döyüşçünün yarasının sarğısına döndü.

O döyüşlərdə doğma səs eşidincə səsin qınından sıyrılan qılınca döndüyünü görənlərimiz sənin sağından-solundan üzü aşağı yeriş elədi. Səsin döyüşənlərimizin döyüşünün salavatı oldu, "Əsgər bulağı". Danış, Azərbaycan əsgərinin qılınc-qüdrətindən, qüdrət-qılıncından danış. Qoy dünya bir daha görsün ki, Azərbaycan əsgərinin qılınclaşan qüdrəti yağı niyyətini necə korşaldır!..

...Bir yaralı döyüşçünün əli digər yaralı döyüşçünün əlinə çatdığı an ikisinin də son nəfəsi oldu....

Hadrutda "Əsgər bulağı"nın çağlayan səsini dinşəyənlər ruhən bunları da eşidir...

Döyüşlərin şahidisən, çağla, "Əsgər bulağı!"

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Konfrans Liqası: Qələbə qazanan "Neftçi" növbəti mərhələyə keçib



Bakıda UEFA Konfrans Liqasının II təsnifat mərhələsinin cavab oyunları çərçivəsində keçirilən "Neftçi"-"Jeleznıçar" oyunu başa çatıb.

Görüş Bakı təmsilçisinin 2:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Oyunun 20-ci dəqiqəsində hesabı Kenni Sayef açıb. Qarşılaşmanın 68-ci dəqiqəsində Eddi İsrafilov ikinci topu rəqib qapısında keçirib.

Bosniya və Herseqovinada təşkil olunan ilk oyun 2:2 hesablı heç-heçə ilə başa çatmışdı. İki oyunun nəticəsinə görə, "Neftçi" turnirin III təsnifat mərhələsinə yüksəlib. Komandamızın növbəti rəqibi "Beşiktaş" (Türkiyə) - "Tirana" (Albaniya) cütünün qalibi olacaq.

## Konfrans Liqası: "Sabah" klubu növbəti mərhələyə yüksəlib



UEFA Konfrans Liqasında mübarizə aparan Bakının "Sabah" klubu növbəti mərhələyə yüksəlib.

Öz meydanında Latviyanın "RFŞ" komandasını 2:1 hesabı ilə məğlubiyyətə uğradan "Sabah" üçüncü təsnifat mərhələsinə vəsiqə qazanıb.

"Sabah"ın start heyətində meydana 1.Yusif İmanov, 2. Amin Seydiyev, 3. Con İrasabal, 4. Elvin Camalov, 7. Boyan Letiç, 10. Aleksey İsayev, 12. Vinsent Till, 15. Kristian da Silva, 18. Davit Volkov, 20. Coy Lens Mikels və 44. Sofian çıxıblar.

"RFŞ"nin start heyətində isə 13 Yevgeni Neruqal, 3. Artur Zyuzin, 9. Yanus İkauniyeks, 10. Emerson, 11. Roberts Sava?niyeks. 19. Andrey İliç, 23. Herdi Prenqa, 25. Pyotr Mareş, 27. Adam Marxiyev, 43. Jiqa Lipuşçek, 52. Martsis Oş yer alıblar.

Qeyd edək ki, komandalar arasında Latviyada keçirilən ilk oyunda "Sabah" 2:0 hesablı qələbə qazanmışdı.

## "Qəbələ" Konfrans Liqasında mübarizəni dayandırıb



"Qəbələ" UEFA Konfrans Liqasında mübarizəni dayandırıb.

Komanda Konfrans Liqasında "Omoniya"ya uduzub. Kipr təmsilçisi 4:1 hesabı ilə qalib gəlib. İlk görüşdə "het-trik" edən ukraynalı Roman Bezus bu dəfə iki dəfə fərqlənib.

## "Neftçi"-"Beşiktaş" oyununun hakimləri açıqlanıb

Avqustun 10-da Bakıda baş tutacaq "Neftçi" - "Beşiktaş" oyununun hakimləri müəyyənləşib.

Konfrans Liqasının üçüncü təsnifat mərhələsinin ilk matçını isveçrəli hakimlər idarə edəcəklər.

Qarşılaşmanın baş hakimi Lukas Fahndrix olacaq. Ona Yonas Erni və Guillom Mayre kömək edəcəklər. Dördüncü hakim funksiyasını Lionel Çudi yerinə yetirəcək.

Matç "Bakcell Arena"da keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

Mayor Bayramov Samir Əsəbəli oğluna məxsus MN № 0063815 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Lətifov Qüdrət Elxan oğluna məxsus AD № 0057290 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 429
Nüsxə 4760